**Qərar № 29/201**

# 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 oktyabr 2015-ci il tarixli 43 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədliyi 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə Müsavat Partiyası tərəfindən irəli sürülmüş Məmmədov Məzahir Zahid oğlu 6 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Araşdırma prosesində müraciət etmiş namizədlə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmiş, habelə onun araşdırmada və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd M.Z.Məmmədov müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədliyi 21 saylı Nəsimi birinci seçki dairəsi üzrə Müsavat Partiyası tərəfindən irəli sürülmüş, həmin dairənin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizəd kimi qeydə alınmasından imtina olunmuş, işçi qrupunun protokolunun surəti və rəyi ona təqdim edilməmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş M.Z.Məmmədovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, imza vərəqələrinə daxil edilmiş 550 seçici imzasından 219-u etibarlı hesab edilmiş, bu da namizədin qeydə alınması üçün yetərli olmamışdır.

Ərizəçinin imza vərəqələrinin və qeydiyyat üçün zəruri seçki sənədlərinin yoxlanılması, dairə seçki komissiyasının iclasında iştiraka dəvət edilməməsi, habelə, işçi qrupunun imzaların yoxlanılmasının nəticələrinə dair protokolunun ona verilməməsi kimi iddialar öz təsdiqini tapmamışdır.

Mərkəzi Seçki Komissiyasında aparılan araşdırma prosesində dairə seçki komissiyası tərəfindən etibarsız hesab edilmiş 331 seçici imzasından 227-si (225-i məlumatların qeyri-düzgün göstərilməsi, 2-si seçki hüququ olmayan şəxs tərəfindən imzalanması) etibarsız hesab edilmiş, adları imza vərəqələrinə daxil edilmiş seçicilərdən 99-nun isə 21 saylı Nəsimi birinci seçki dairəsinin ərazisində yaşamadığı, qeydiyyatda olmadığı və həmin seçki dairəsi üzrə seçici siyahılarında adlarının olmadığı müəyyən edilmişdir. Etibarlı hesab edilmiş 224 seçici imzası isə namizədin qeydə alınması üçün kifayət deyil.

Seçki Məcəlləsinin 59.12-ci maddəsinə uyğun olaraq etibarsız sayılan imzalar çıxıldıqdan sonra qalan seçici imzalarının sayı qeydiyyat üçün lazım olan saydan az olarsa, namizəd qeydə alınmır.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Bununla da dairə seçki komissiyası Seçki Məcəlləsinin 59.12-ci maddəsinə uyğun olaraq, M.Z.Məmmədovun namizəd kimi qeydə alınmasından imtina edərkən düzgün nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 21 saylı Nəsimi birinci seçki dairəsi dairə seçki komissiyasının M.Z.Məmmədovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 5 oktyabr 2015-ci il tarixli 17/50 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Məmmədov Məzahir Zahid oğlunun 6 oktyabr 2015-ci il tarixli 43 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 5 oktyabr 2015-ci il tarixli 17/50 saylı qərarı qüvvədə saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | Məzahir Pənahov |
| **Katib** | Arifə Muxtarova |
| **Katib** | Mikayıl Rəhimov |

***08.10.2015***